# Beynəlxalq konfrans başa çatıb

Bakıda "İslamofobiya: Qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda keçirilən beynəlxalq konfrans mayın 27-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, konfransın sonuncu sessiyası "EULEMA-nın xüsusi fokus mövzusu: Avropada İslamofobiya" mövzusuna həsr olunub.

COREIS-in vitse-prezidenti, EULEMA sədri Yahya Pallavicinin moderatorluğu ilə keçirilən sessiyada çıxış edən Avstriya Müsəlman Təşəbbüsünün sədri Tarafa Bağaçatı təəssüflə bildirib ki, bəzi siyasi partiyalar və qurumlar İslamı Avropa dəyərlərinə zidd göstərərək onu bu qitədən uzaqlaşdırmağa çalışırlar. Bu, yalnız İslamı deyil, bu dinə inanan milyonlarla avropalını da hədəfə alır. Halbuki İslamı və müsəlmanları Avropanın sosial və mədəni toxumasının bir hissəsi kimi görmək daha düzgün və ədalətlidir.

"Biz müsəlmanlar İslamın siyasətdə sui-istifadə edilməsinə qarşıyıq. Din heç zaman nifrət və parçalanma vasitəsi olmamalıdır. Biz Avstriyada və digər ölkələrdə hökumətin qoyduğu bərabərlik şərtlərinə hörmətlə yanaşırıq, lakin bu şərtlərin ədalətli və fərqlilikləri nəzərə alan şəkildə tətbiqini tələb edirik.

Etiraf etməliyik ki, Qərb cəmiyyətlərində baş verən bir çox mənfi hadisələrdə avtomatik olaraq müsəlmanlar günahlandırılır. Bu, bizə qarşı yalnız etibarsızlıq yaratmır, həm də inteqrasiyanı və sosial birliyi də ciddi şəkildə zədələyir", - deyə Tarafa Bağaçatı bildirib.

Sarayevo İstiqlal Məscidinin imamı Edin Hamzakadiçin sözlərinə görə, Bosniya və Herseqovinada islamofobiya haqqında danışarkən, təcrübə göstərir ki, bu anlayış iki əsas sahəyə bölünür. Birincisi, zehni yanaşma, yəni insanlar arasında mövcud olan stereotiplər, ikincisi isə İslama münasibəti əks etdirən təqdimat və təbliğatdır. Ölkəmdə islamofobiya ilə bağlı əsas problem məhz bu anlayışın özü, onun təqdim olunma və anlaşılma formasıdır.

"İslamofobiyanın ilk və ən mühüm aspekti bosniyalılıqla əlaqələndirilir. Bu təqdimat vasitəsilə biz islamofobiya və digər ayrı-seçkilik formaları ilə qarşılaşmışıq", - deyə E.Hamzakadiç qeyd edib.

Lissabon Mərkəzi Məscidinin imamı David Munir əvvəllər, xüsusən 1990-cı illərə qədər, Lissabonda islamofobiyanın demək olar ki, olmadığına diqqət çəkib. Onun sözlərinə görə, müsəlmanlar bu cəmiyyətin sakit, hörmətli və əməksevər üzvləri kimi tanınırdılar. Məscidlərə gələnlər az idi, ancaq insanlar arasında qarşılıqlı hörmət və anlayış daha güclü hiss olunurdu.

David Munir qeyd edib ki, müsəlmanları cəmiyyətin təhlükəli və yad elementi kimi göstərməyə çalışan siyasi qruplar var. Onlar sanki özlərinə olmayan düşmən yaratmaqla, insanların qorxularından siyasi qazanc əldə etməyə çalışırlar. İslamı və müsəlmanları terrorçu və təhlükəli kimi təqdim edən bu ritorika həm ədalətsizdir, həm də çox təhlükəlidir.

Rumıniya Müsəlman icması müftisinin müşaviri Geicun Mustafa vurğulayıb ki, dinlərarası dialoqun əsas məqsədi başa düşmək, dəyişmək, reallığı daha yaxşı dərk etmək və bu anlayışa uyğun şəkildə hərəkət etməkdir. Belə dialoqlar yalnız qarşılıqlı etimada əsaslanaraq həyata keçirilə bilər və bu, müxtəlif qanun layihələri çərçivəsində müsəlmanların ortodoks və katolik xristianlar, yəhudi icmaları ilə birgə yaşaması modelində özünü göstərir.

"Ölkəmiz tərəfindən rəsmi olaraq tanınmış digər dini konfessiyalarla birgə həyata keçirdiyimiz fəaliyyətlər vasitəsilə biz xalqlar arasında sülhə və anlaşmaya əsaslanan ümumbəşəri dəyərlərlə birləşmək iradəmizi vurğulamağa çalışırıq. Ölkəmizdə İslam dini dəyərlərinin qorunması siyasi mövcudluq prinsiplərinə və heç bir hakimiyyətin təsir etmədiyi mənəvi mənbələrin qorunmasına əsaslanır", - deyə müşavir vurğulayıb.

Sonda Birgə Kommünike qəbul edilib.

Azərbaycan.- 2025.- 28 may (№110).- S.22.